Turac və sehrli daraq

Solmaz Amanova



3 alma

Solmaz Amanova

Turac və sehrli daraq

Yeddi səhnəli pyes



3 alma

Azərbaycan Respublikası Təhsil Nazirliyinin
Təhsildə inkişaf və innovasiyalar üzrə III qrant müsabiqəsinin qalibi,
R.Nəsrəddinov adına 39 saylı tam orta məktəbin "İKT-İRS" layihəsi əsasında hazırlanıb.

İllüstrator: İskəndər Məmmədov

Azərbaycan dilində birinci nəşri
10 9 8 7 6 5 4 3 2 1

Solmaz Amanova. Turac və sehrli daraq.
Bakı, TEAS Press Nəşriyyat evi, 2019.

ISBN 978-9952-532-50-0

"Turac və sehrli daraq" nağıl-pyesi əfsanə əsasında yazılıb. Xalqımızın ən qədim bayramı olan Novruzun adət-ənənələrindən, çərşənbələrdən bəhs edən nağıl-pyes TEAS Press Nəşriyyat evində çapa hazırlanıb. Kitabın Azərbaycan dilində nəşri hüququ TEAS Press Nəşriyyat evinə məxsusdur.

TEAS Press Nəşriyyat evi "3 alma" əmtəə nişanı ilə azyaşlı uşaqlar, yeniyetmə və gənclər, eləcə də müəllim və valideynlər üçün bədii və elmi-kütləvi kitablar nəşr edir.

www.teaspress.az
www.3alma.az

Bütün hüquqlar qorunur
© Solmaz Amanova, 2019
© TEAS Press Nəşriyyat evi, 2019

Türkiyədə çap edilib
Bilnet Matbaacılık ve Yayıncılık A.Ş.
Dudullu Organize Sanayi Bölgesi 1. Cadde No: 16
Ümraniye / İstanbul
Tel: 444 44 03 Faks: (216) 365 99 07
www.bilnet.net.tr

"3 alma" TEAS Press Nəşriyyat evinə məxsus əmtəə nişanıdır

Mündəricat

Ön söz....4
Turac....5
İştirak edənlər....6
Turac əfsanəsi....8
Birinci səhnə....9
İkinci səhnə....18
Üçüncü səhnə....24
Dördüncü səhnə....49
Beşinci səhnə....56
Altıncı səhnə....67
Yeddinci səhnə....73



Ön söz

"Turac" nağılı Azərbaycan əfsanəsi əsasında yazılıb. Tamaşa "İRS" seriyasındandır. Dünyanın bütün ölkələrində yazın gəlməsini qeyd edirlər, Azərbaycanda da Novruz bayramı milli bayram kimi qeyd olunur. Nağıl-pyes Novruz bayramının özünəməxsus xüsusiyyətləri, eyni zamanda Azərbaycanın bütün bölgələrinin adət-ənənələri, mahnıları, rəqsləri, folkloru, geyimləri, mətbəxi, Novruz personajları olan Keçəl və Kosa, həmçinin bayramın dörd çərşənbəsi öz əksini tapmışdır. Əsərin qəhrəmanı Turac rəhmlidir, qəddarlığa qarşı çıxır və qalib gələrək özünə çoxlu dostlar tapır. Lakin qəddarlığı ilə hamını yerində otuzduran Xanım öz xoşbəxtliyini bataqlıqlarda tapır. Uşaqların sevimlisi olan İlmə tamaşanın sonunda gələrək Turaca kömək edir.

"İlmənin macəraları" kitabı beynəlxalq sərgilərdə 2-ci və 4-cü yerlərə layiq görülmüşdür. Eyni zamanda Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən elektron dərslik portalında sinifdənxaric dərslik kimi yerləşdirilmişdir. Hətta "Play market"də "İlme" adlı oyunlarda kitabın "T" hərfinə aid "Turac və İlmə" adlı cizgi filmi verilib.

Sizi nağıllar aləminə dəvət edirəm! Ümid edirəm ki, Turacın əsrarəngiz sərgüzəştlərini sevəcəksiniz.

Solmaz Amanova
professor, yazıçı

Turac

Ürkək-ürkək gəzən quş,
Muğan elinə bir tac.
Qorxudublar eləmi,
Ağlama, gəl, ay Turac.

Əfsanədə söylənir,
Sən gözəl qız olmusan.
Bir xanımın qulluqçusu,
Hər işə can qoymusan.

Dara gəlib əzabdan,
Darağı itirmisən.
Arzulayıb, quş olub,
Qalxıb göyə uçmusan.

Səmada süzən zaman,
Yadına düşüb taxça,
İçinə daraq qoyduğun,
Taxçadakı zərli boğça.

O gün-bu gün səhərədək,
Səsin gəlir Muğandan:
"Tax-tax, daraq taxçada,
Taxçadakı boğçada!!!"

İştirak edənlər



Xanım (Qurbağa – Jabəndə)
Turac
Aparıcı Qarğa
Dərzi Səlim

Qızılgüllər
Bazarın böyüyü Qarpız
Hambal süpürgə
Qaranquşlar
Alma ağacı (satıcı)
Qoz
Səməni
Çay
Halva
Xoruz
İpəkqurdu
Kişmiş
Pəhləvanlar

Çubuq
Əncir
Tut
Əvəlik
Zəfəran
Üzüm
Nar
Pambıq
Keçi
Lahıclı satıcı
Sarımsaq
Qoyun – xalça satıcısı
Bülbül
Nənə (zənbil satıcısı)
Piti qabı
Mir usta
Arı
Portağal
Balqabaq – vəzir

Keçəl
Kosa
Bahar
Odunçu
Qurbağalar
Kvajab
Su çərşənbəsi – Çay
Naqqa balığı
Su pəriləri
Od çərşənbəsi – Alov, alovlar
Yel çərşənbəsi – Külək
Novruzgülülər və lalələr
İlmə
Turacın anası
Torpaq və sonda xor



Turac əfsanəsi



iri var idi, biri yox idi, qədim zamanlarda Turac adlı bir qız qəddar xanımın evində qulluqçu işləyirdi. Xanım onu tez-tez döyüb cəzalandırırdı, ac saxlayıb, köhnə paltarda gəzdirirdi. Günlərin bir günü xanım Turacı çağırıb ona dedi:

– Ay qız, su qızdır, mənim başımı və ayaqlarımı yu!

Turac su qızdırdı. Darağı götürmək istəyəndə gördü ki, qoyduğu yerdə yoxdur. Çox axtardı, lakin tapa bilmədi. Bir azdan xanımın səsi eşidildi:

– Səni görüm öləsən, hara itmisən?

Turac cavab verdi:

– Xanım, indi gəlirəm.

Otaqda oyan-buyana qaçdı. Hər tərəfi gəzdi. Xanımın ayaq səsləri eşidiləndə, Turac gözlərində yaş Allaha yalvardı:

– Ay Allah, məni quş elə, canım qurtarsın bu əzablardan!

Xanım ağacla içəri girəndə, Turac quşa dönüb bacadan çıxaraq, göyə uçdu. Birdən onun yadına düşdü ki, daraq taxçadakı boğçanın içindədir. O, uçub pəncərəyə qonaraq oxudu:

– Tax-tax, daraq taxçada, taxçadakı boğçada.

O vaxtdan çox illər keçməsinə baxmayaraq, Turac indi də bu sevimli mahnısını oxuyur:

– Tax-tax, daraq taxçada, taxçadakı boğçada.

Turac və sehrli daraq

Birinci səhnə



Xanım:
Hara itmisən, hara?
Turac, gəl get bazara.
Alma, armud, nar al, gəl,
Şam, badam, nə var al, gəl.
Qız, sənin yansın canın!
Bayram gəlib, ev boşdur.
Bəlkə, sənə bu xoşdur?
Nə paxlava, qoğal var,
Nə də şəkərburalar.
Bişməyibdir biri də,
Günlər qalıb geridə.
Darayıb, hörürsən saç,
Götür zənbili, tez qaç.

Turac:
Xanım, ələdim unu,
Lap tez elədim bunu.
İslatmışam mayanı,
Yox o yanı, bu yanı.
Pul ver, bazara gedim,
Tez alış-veriş edim.



Xanım:
Mütləq mənə cövhər al,
Usta qatsın ona bal,
Bazardan tez qayıt gəl,
Olum hamıdan gözəl!
Al, sənə bu bir manat!

Turac:
Xanım, budur sualım,
Bir manata nə alım?

Xanım:
Çalış, çatdır hər şey al,
Çox vermə mənə sual.
Hamıya pul səpmə sən,
Pulsuz al, deyim əhsən!

Aparıcı Qarğa:
Turac getdi bazara,
Düşdü min bir azara.
Dərzi rast gəldi ona,
Söylədi yana-yana.

Dərzi Səlim:
Salam, Turac, nə olub?
Sanki gözlərin dolub?


1 MANAT



Turac:
Ay Səlim dayı, salam!
Gedirəm cövhər alam,
Birdə qoz, alma, badam...
Bir manat verib xanım,
Bir manata nə alım?

Dərzi Səlim:
Bir Yumaq bazarı var,
Orda hər şey satırlar.


Turac:
Apar məni oraya,
Bəlkə, işə yaraya.

Dərzi Səlim:
Yol göstərim sənə mən,
Qızım, bu gün yenə mən.

Turac:
Siz dediz Yumaq bazar,
Görən orda cövhər var?

Dərzi Səlim:
Gey sehrli xələti,
Dolanaq məmləkəti.





Aparıcı Qarğa:
Arılar uçuşdular,
Xələti qaldırdılar.
Hər tərəf gözəl çiçək,
Çiçəklər ləçək-ləçək.
Endi yerə arılar,
Möcüzə gördü onlar.

Pərdə





İkinci səhnə

Turac:
Ah, bu nə sirr, bu nə sehr,
Hər yan çiçək ətridir.

Dərzi Səlim:
Çiçəkli bahar gəlib,
Min cür bar, nübar gəlib.

Turac:
Yuxu görürəm nədir,
Bu nə sehr, nə ətir?

Qızılgüllər:
Qızıl götür, ay Turac,
Burda millət qalmır ac!
(Turaca bir qızıl verir.)




YUMAQ
Bazar

Bazarın böyüyü
Qarpız:
Bazara gəlib Bahar,
Gətirin, düzün nə var.
Tonqallara od vurun,
Yumaq çadırı qurun.

Hambal süpürgə:
Xalçanı qunduz çəkdi,
Öz evini bəzədi.

Qarpız:
Dur keşikdə, tərpənmə,
Ayıq-sayıq ol bu gün.
Saqqalınla hər şeyə,
Gəl, cavabdeh ol bu gün.

Hambal o biri hamballara
(Xırda ev və həyət süpürgələri):

Siz tez olun, süpürün,
Çayçı, tacir və baqqal.
Heç kimə söyləməyin,
Ayaq saxla, burda qal!
Nərgiz, lalə, bənövşə,
Qalmasın bircə guşə!






Qarpız:
Gəlsin bura samovar,
Kamança, nağara, tar.
Ruhumuz olsun qoy şən,
Sevinsin millət, Vətən!
Şalaxo – ilk nömrədir,
Ən əvvəl rəqs gərəkdir!

(“Şalaxo” rəqsi səslənir. Qaranquşlar rəqs edib Turacın ətrafında dövrə vururlar.)

PƏRDƏ





Üçüncü səhnə

(Qızılgüllər Yumaq bazara gələn alıcılara bir qızıl pay verir.)

Alma ağacı (satıcı):
Qəbələdən alma var,
Qızıləhməd adlanar.
Üstünə sərdim saman,
Ah, ətirlidir yaman!





Turac:
Ver bir az hərəsindən,
Görmədim beləsindən.
(Satıcı Turaca alma pay verir, "Almanı atdım xarala" mahnısı səslənir.)

Qoz:
Üç badam, püstə, bir qoz,
Dadına heç yoxdur söz!

Turac:
Ver bir az hərəsindən,
Görmədim beləsindən.
(Satıcı Turaca ləpə pay verir.)

Səməni:
Yamyaşıl buğdaya bax,
Daş üstə bitər qoçaq!
İncəbelli səməni,
Xatırladır çəməni.
(Satıcı Turaca səməni pay verir,
"Səməni" rəqsi səslənir.)

Çay:
Budur Lənkəran çayı,
Yoxdur heç yerdə tayı.
Qıza, iç mənimlə çay,
Xanıma da apar pay.
("Çay" mahnısı səslənir.)

Halva:
Halva gəlib Şəkidən,
Əskik deyil çəkidən.
Şirniquş, dadı gözəl,
Xoruztək dimdik gəzər.
(Xoruzlu şirnidən pay verir.)


ยก

Kişmiş:

Ordubadın kişmişi,
Gəlib göydən düşmüşü.
Əriyi sapsarıdır,
Bağçaların barıdır.
Bax, Naxçıvan göyçəsi,
Bəstələnib nəğməsi.



(Pəhləvan döyüşü. İki qoç –
qara və ağ qoç döyüşür.
"Cəngi" səslənir.)

Turac:

Pəhləvana yaxşı bax,
Varmı onuntək qoçaq?
Sağdakı yıxıldı, vay,
Yoxdur bir verən haray.



(Xoruz döyüşü)

İpəkqurdu:
Toxuyuram mən ipək,
Vururam naxış, bəzək.
Kəlağayı gül ləçəyi,
Buta onun bəzəyi.

Çubuq:
Yun çubuğu, süpürgə,
Gəl al onları birgə.

Tut:
Bax bu da xar tutdur, al,
Özüm ölüm, sanki bal.



("Tut" mahnısı səslənir, Xoruz yumurtanı dişinə vurur və Çubuqla yumurta döyüşür.)

Xoruz:
Yumurta Mərdəkandan,
Heç yerdə yoxdur bundan.

Çubuq:
Qabığı sındırır diş,
Bu çiydir, yoxsa bişmiş?





Nar:
Göyçayın şirin narı,
Bundan gəl al, qız, barı.
("Nar" rəqsi səslənir.)

Sarımsaq:
Sarımsaq – dadı acı,
Min bir dərdin əlacı.
Əz, qat xəngələ, xaşa,
Xəstələnmə, çox yaşa!

Zəfəran:
Abşeron zəfəranı,
Sağlam eləyər canı.
(Turaca bir qab zəfəran pay verir.)

Üzüm:
Üzümə bax, üzümə,
İşıq salır gözümə.



Pambıq:
Turac, bu gün bayramdır!
Bu pambıq Salyandandır.
Parçası sanki lələk,
Ala, gəlmirəm kələk.
İki arşın götür pay,
Köynəyinə olsun tay.
(Parçanı Turaca pay verir.)

Qoyun – xalça satıcısı:
Qarabağdandır xalı,
Qaldırar o əhvalı.
Şahlara layiq, inan,
Səhv edər bunu danan.
Ay Turac, gəl xalı al,
Burda gözəl malı al.
(Hər tərəf ip yumaqlarıdır.)

Turac:
Xanımım az pul verib,
Qara çatmaz pul verib.
(Qoyun Turaca balaca xalça pay verir.)



Keçi:
Budur, Gəncə qaymağı,
Dadlı edər damağı.
Qatıq camış südündən,
Çalınıbdır o dünən.

Lahıclı satıcı:
Daş-qaşlı qızıl daraq,
Dərdə çarə olacaq.
Götür mis aftafanı,
Səhəng, sərnic, qazanı.
(Turaca daraq pay verir, o, darağı saçına taxır.)



Bülbül (gül satır):
Vətən bağı al-əlvandır,
Yox üstündə xarıbülbül.
("Xarıbülbül" mahnısı səslənir.)

Aparıcı Qarğa:
Turac gəzir bazarı,
Çəkilir dərd, azarı.
Hər yerdə mahnı, şeir,
Hamı xoş sözlər deyir.

Turac (satıcıdan soruşur):
Mir ustanın dükanı,
Söyləyin, axı hanı?

Nənə (zənbil satıcısı):
Al, Turac, bax bu zənbil,
Nəğməylə hörülüb, bil.
Hər yanı incə qamış,
Dilini bilir talış,
Oxuyurlar "Ay lolu",
İçərisi mal dolu.
(Nənələrin rəqsi)



Turac (piti qabı satandan soruşur):
Mir ustanın dükanı,
Orda satırlar şanı.
Hey axtarıram onu,
Yoxdur yolumun sonu!

Piti qabı (satıcı):
Al, küp, nehrə və çölmək,
Vurdum üstünə bəzək!

Əvəlik:
Tərxun, keşniş, turp, şüyüd,
Kök, tərə, səhləbli süd.
(Burnu uzun çaynikdən səhləbli südü Turaca verir.)

Əncir:
Əncir Novxanıdandır,
Qurusu da dərmandır.
Quruyub yarpaq üstə,
Sağalar yesə xəstə.




BAL

Turac:
Salam, salam, Mir usta,
Yoxdur səs-səmir, usta.
Cövhər istəyir xanım!
Gec getsəm, çıxar canım.

Mir Usta:
Səndən olmaz ki, gözəl!
Başı da çoxdan keçəl!

Turac:
Olsun, çıxacaq canım,
Öldürər məni xanım.
(Mir usta gülümsəyir,
arı ilə pıçıldaşır.)

Mir Usta:
Cövhərə azca qat piy.

Arı:
Bundan gəlir çox pis iy?

Turac:
Arı, pul verim sənə,
Cövhəri ver tez mənə!
(Arı cövhəri pay verir.)

Arı:
Sehrli şamı gəl apar.
Axşam istilik qatar.
Kim atdı bura papaq,
Onu atanı tapaq.

Turac:
Kosa ağac dalında,
Keçisi də yanında.



Portağal:
Gəlir vəzir Balqabaq,
Bir azdan gələcək şah,
Vəzirlə Keçəl, Kosa,
Əlində çömçə, kasa!

Bütün bazar oxuyur:
Kosa-Kosa, gəlsənə,
Mahnı deyib gülsənə,
Bizə Novruzu, bir də
Keçəli gətirsənə.



Bütün bazar oxuyur:
Kosa-Kosa, yaz hanı,
Vətən gözləyir onu,
Quşlar nəğmə deyirlər,
Güllər geyib al donu.

Kosa:
Mən Kosayam, Kosayam,
Bir kasa bozbaş verin,
Keçəl yeyib nə varsa,
Mənsə acam aş verin.

Keçəl:
Kosa-Kosa, can Kosa,
Mən Keçələm, sən arı,
Xonçanı yemişik biz,
Axı yarıbayarı.



Kosa:
Mən Kosayam, şən Kosa,
Keçəl, sən də yarasa,
Sən həm bicsən, həm də tox,
Amma ki, papağın yox.

Keçəl:
Kosa-Kosa, can Kosa,
Şeh düşübdür başıma,
Papağını götürmə,
Ver Keçəl qardaşına.



Kosa:
Mən Kosayam, Kosayam,
Ayaqlarım yalındır.
Sən bir eşşək tapmısan,
Gönü yaman qalındır.

Keçəl:
Kosa-Kosa, can Kosa,
Bir çön sən bax bu qıza.
Gətir qazan və çömçə,
Həm də yemək bir nimçə.

Bahar:
Ay Kosa, can ay Keçəl,
Gəlin mənə verin əl.
Birgə yallı gedəyin,
Eli dəvət edəyin.
("Yallı" rəqsi səslənir.)



(Turac hər şeyi unutmuşdu.
Birdən başına döyür və dərzi Səlimi
bazarda tapıb evə dönməyi xahiş edir.)

Aparıcı Qarğa:
Sehrli xələti geyib,
Vızıldaşır arılar...
Göy üzündə uçuşur,
Uzaqda səslənir ney...
Turac tez yerə enir,
Tələsik evə gəlir.

PƏRDƏ







Dördüncü səhnə



(Xələti çıxardıb dərzi Səlimə verir və təşəkkür edir, əlində dolu zənbillərlə evə daxil olur.)

Turac:
Cövhər alıb gətirdim,
Lap vaxtında yetirdim.

Xanım:
Canın yansın, ay Turac,
Odun gətir, qızsın sac.
Tez ol, tik mənə paltar,
Gör nə qədər işin var.
Bir umaclı halva çal,
Bayrama bircə gün var.
(Turac qaçıb zənbilləri qoyur, xanımın ölçüsünü götürüb parçanı kəsir. Sini götürüb ortasına səməni qoyur. Sonra ətrafına alma, qoz, fındıq, əncir, tut qurusu töküb xonça bəzəyir. Süfrə açır.)

Xanım:
Bəs dedin ki, azdır pul,
Çatmaz qəndə və una.
Hanı neft, almamısan,
Qalaq biz dona-dona?!

Turac:
Getdim Yumaq bazara,
Oldum qonaq bazara.
Neft yerinə aldım şam,
Soba yandıraq axşam.
Göy şamda var sehr və sirr,
Şam balaca günəşdir.

Xanım:
Ah yalançı, səfeh qız,
Başın boşdur, ağlın az.

Turac:
(Birdən yadına zərli daraq düşür.)

Xanım, daraq almışam,
Öz saçıma taxmışam.



Xanım:
Görməmişsən, görməmiş,
Bəzəndin, oldun çəpiş.
(Xanım hirslə darağı Turacın başından çıxarıb güzgünün qabağında öz başına taxır.)

Ay qız, Turac, çay gətir!
Xəmiri tez elə, qat.
Kim deyibdir ki, evdə
Get başını atıb yat?

Turac:
Bazardan gəlirəm mən,
Yatmamışam, ay xanım.
Bu saat xəmir qatıb,
Çay dəmləyərəm, xanım.

Xanım:
Pəncərəni bağla, qız,
Gəlir ağlamaq səsi.
O ağlayan kimdirsə,
Kəsiləcək nəfəsi.



Turac:
Kəndli qızı döyürlər,
Geyimi qırmızıdır,
Çox yığılıb camaat,
Axı kasıb qızıdır!

Xanım:
Geyimi qırmızıdır,
Gör qız kimin qızıdır?
Su qızdır yu başımı,
Pəncərənin tayın aç,
Tez ol, su dalınca qaç.

(Pəncərənin arxasında odunçunun nəğməsi eşidilir: "Pəncərədən daş gəlir", sonra "Vətən" muğamı eşidilir. Turac xanımına çay gətirir, xəmiri kündələyib üstünü örtür. Xanım mütəkkəyə dirsəklənib qarşısındakı xonçadan alma götürüb marçıldadaraq yeyir.)

Xanım:

Oxuma, cırdır səsin,
Yox bir işə həvəsin.
Başıma gəl vur dırnaq,
Sanc saçıma sən daraq
Cövhərlə elə masaj,
Üzümə et makiyaj.

(Turac xanımın başına dırnaq vurur, üzünə cövhər çəkir, xanım xoruldayır.)

Turac:

Kürüm, ay Kürüm,
Göz yaşım axır.
Anamçün mənim
Ürəyim yanır.
Qamışlar şax-şax,
Külək oyanıb.
Turaclar bax, bax,
Başın qaldırıb.

Kürüm, ay Kürüm,
Qalxdım mən bəndə.
Oxu, bülbülüm,
Sevinim mən də.





Xanım (yuxudan oyanır):
Paltarımı ver, ay qız!
Oxuma bu nəğməni,
Hirsləndirirsən məni!
Dayanma, yansın canın,
Yuyulmayıb fincanım.
Başımı yu, gətir su,
Yuxum da quş yuxusu.

Turac:
Qızdırmışam otağı,
Burdadır su bardağı.





Xanım:
Darağımı ver, Turac,
Ac nəsildənsən, sən ac.

Turac:
Haradasan, ay daraq,
Nə olar, ver bir soraq,
Allah, mənə kömək ol,
Quş eylə, uçurt məni.
Götür bu cəhənnəmdən,
Çöllərə qaçırt məni.

(Allah onu azad quşa – Turaca çevirir. Turac uçub pəncərəyə qonur və darağı qoyduğu yeri xatırlayır. Darağın yerini xanıma deyir.

Xanım otağa girir və görür ki, Turac yox olub. Xanım özünə güzgüdə baxır və dəhşətə gəlir. Görür ki, cövhər onu qurbağaya çevirib.





Xanım qorxur, Turac qanadlarını çırpır və "Turacı" rəqsini ifa edir.

Turac (quş) pəncərədə oturub oxuyur.)

Turac:
Xanım, daraq boğçada,
Zərli boğça taxçada.
Tax-tax-tax-tax-tax-tax-tax!
Sən zülmə, dəhşətə bax!
Şar kimi kök qurbağa,
Yox oldu xanım daha.
Al donu əyninə dar,
Nə qorxunc gözləri var!

PƏRDƏ

Beşinci səhnə



Turac:
Bu dünya dardı mənə,
Əziyyət yardı mənə.
Məsləhət verən gəlsin,
Falçı, baxıcı, ya cin...
Cövhəri iylədim, vay...
Görün bir neylədim, vay...
Dünya çökdü gözümdə,
Quşa döndüm özüm də.
Nə yaxşı ki, qurbağa
Olub düşmədim bağa.

Aparıcı Qarğa:
Darıxır Turac yaman,
Çəmən gəzdiyi zaman.
Uçdu, ucaldı göyə,
Dərdin unutsun deyə.

Turac:
Su olsa bircə fincan,
Susuzluqdan gedib can.

Qurbağa (xanım):
Turac, sən də oldun quş?
Ölüm gəzdirən bayquş!

Turac:
Qur-qur xanım, burdasız?
Nə yaxşı ki, siz varsız.
Mənə Allah yolunda
Bir ovuc su verərdiz.

Xanım:
Mənim adım Jabəndə,
Darağım qalıb səndə.

Turac:
Nə günahım var, xanım?
Mir usta və arılar
Baldan cövhər aldılar,
Cövhərə piy qatdılar,
Yaşıl qurbağa piyi,
Ətrafı aldı iyi.
İstədiniz möcüzə,
Dediniz ki, tez bəzə!

Jabəndə xanım:
Səni görüm yanasan,
Lap pis günə qalasan!



Turac:
Hamını sevirəm mən,
Pislik gəlmir əlimdən.
Bəlkə, arıdadır sirr,
Kömək edər sizə Pir!


Jabəndə xanım:
İstəyirsən hər kəsin
Ağlın başdan alasan.
(Turacı yamsılayır.)
"Bəlkə, arıdadır sirr,
Kömək edər sizə Pir!"
Hardan gəldi fikrinə,
Heç düşünürsən bu nə?!



Turac:
Eviniz bataqlıqda,
Mənim evim göydədir.
Quruyubdur boğazım,
Bircə qurtum su lazım!

Jabəndə (xanım):
Gəl sənə cövhər verim,
Canına azar deyim.

Bataqlıqdakı qurbağalar:
Oy, qur-qur, oy, qur-qur-qur!



Jabəndə xanım (lovğa-lovğa):
Sehr kitabı tapmışam,
Yox olacaqdır düşmən.
Sandıq dolu daş-qaşla,
Bölünməz dost-qardaşla.
Tonqalda gil bişir, bax,
Tələsmə, saxla ayaq.
Mənim qabım incidir,
Qablarda birincidir.
Qurbağa içir cövhər,
Gün keçir, olur səhər.
Cövhər içib ollam qız,
Qalmayacağam yalqız.
Tale gülüb üzümə.
Bax güzgüyə, dön qıza,
Bənzə göydə ulduza.

Bataqlıqdakı qurbağalar:
Oy, qur-qur, oy, qur-qur-qur!



Jabəndə xanım:
Yumun siz çənənizi,
Qovaram indi sizi.
Bax bu, mənim cövhərim.
İstəsən sənə verim?


(İçində yaşıl maye olan şüşə qabı göstərir və pis iy verən mayedən içir, sehrli güzgünün qabağında fırlanır.)



Turac:
Ay aman, siz quşsunuz!
Üzünüz ulaq üzü,
Quyruq almaztək parlar,
Geyindiniz al paltar?

Jabəndə xanım:
Nişanlım gəldi – Kvajab,
(Soruşur qurbağadan)
Çox satmısan bu gün qab?





(Kvajab pulu gizlətmək istəyir.)

Jabəndə xanım:

Tez ol, pulu ver mənə,
Sillə vuraram sənə!

Kvajab:

Nə gözəlsən, Jabəndə!
Şahzadəsən gözümdə!

(Kvajabdan qızıl pulları götürüb sandığa yığır.)

Jabəndə xanım:

Toya bəzənirəm mən,

(Turaca üzünü çevirib deyir)

Qonağım olarsan sən?



Turac:
Nə yaxşı, mübarəkdir,
İndi getmək gərəkdir.

Aparıcı Qarğa:
Jabəndə xanım şaddır,
Hər bir işdən azaddır,
Bu gün toyudur onun,
Geyib qırmızı donun.
Qurbağalar göldədir,
Cövhər yenə əldədir,
Hamı sevinir, gülür.
Turacın dönür başı,
Elə hey axır yaşı.
Havaya qalxır o an.
Uçub gedir oradan.

(Qurbağa xanım və onun nişanlısı toy paltarında rəqs edirlər (musiqi sədaları səslənir), qurbağalar, tısbağalar, zəlilər və bataqlıq quşları qəhqəhə çəkib gülürlər. Hamı rəqs edir. Qurbağa xanım çox xoşbəxtdir. Turac nəfəs almadan bu dəhşətli bataqlıqdan qaçmağa çalışır.)

Pərdə





Altıncı səhnə

Su çərşənbəsi

Turac:
Çay, niyə tez axırsan,
Keçirsən dağ başından.
Evimi göstər mənə,
Qurtar göz yaşından.

Çay:
Bilmirəm evin hanı,
Gəzməlisən cahanı.
Su çərşənbəsi gəlib,
Qoy bəzəsin hər yanı!

Naqqa balığı:
İndi bayram sacının
Qalanıb altı yenə.
Halva bişir qazanda,
Umacı dənə-dənə.
Anandı sac başında,
Salır napnazik yuxa?!
Qalıb gözləri yolda,
Ağlayır baxa-baxa?!

(Su pərilərinin rəqsi)



Od çərşənbəsi

(Turac yoluna davam edir.
Oda rast gəlir. Alovlar rəqs edir.)

Alov:
Turac, çox kədərlisən,
Sanki bir az dərdlisən?!
Hoppan tonqal üstündən,
Sevindirim səni mən.
At qəlbindən kədəri,
Bu gün Novruz səhəri.

(Turac ürəyində belə bir arzu tutur: "Öz doğma evimi tapım" və tonqalın üstündən tullanır.)

Turac:
Alov, gördün evimi?
Dedilər sahildədir!

Alov:
İşim çoxdur, məşğulam,
Gərək çox yerdə olam.
Od çərşənbəsi gəlib,
Gör necə alışıb Gün!
Yollanım Atəşgaha.
Dolanım bu dünyanı,
Alovdur Yerin canı.







Yel çərşənbəsi

(Bu vaxt Külək əsir,
Turac küləyin rəqsinə qoşulur.
Novruzgülülər onun ətrafında fırlanır.
Novruzgülülərlə Küləyin rəqsi başlayır.)

Turac (Küləyə müraciət edir):
Gəzmisən Yer üzünü,
Külək, söylə düzünü.
Əsdin belədən-belə,
Şimal, Cənub, görmüsən.
Küləyim, hanı evim?
Anamı sevindirim!

Külək:
Uçan xalçanın üstə,
Bir oğlanı mən gördüm.
Dünyanın sirlərini,
Dilindən çox eşitdim.
Kim deyə bilər kəlmə,
Ev yerin bilər İlmə.

Pərdə





Yeddinci səhnə



(Turac meşədə ağlaya-ağlaya gedir.
Kimsə gözəl səslə mahnı oxuyur.)

İlmənin mahnısı
Çox gözəldir corablar,
Naxışlıdır xalılar.
Dolanıram hər yeri,
Bəzəyirəm hər evi.
Mənim adım İlmədir,
Gücüm də birlikdədir!

İlmə:
Kimdir o, ağlayan var?


Turac:
Mənəm, Turac quşuyam.


İlmə:
Bu dünya başına dar,
Nə baş verib, dərdin var?

Turac:
İtirmişəm darağı,
Axtardım solu, sağı.
Xanım qışqırdı: "Aman!"
Quşa çevrildim o an.
Kür yanında daxma var,
Anam yanında qalar.

İlmə:
Turacım, çox çəkməz,
Kömək edərəm sənə,
Dərd çəkilər qəlbindən,
Gülər üzün yenidən!
(İlmə papağından sehrli tük qopardır, arzu tutur ki, Turac qıza çevrilsin.)

İlmə:
Turac, bu mücrü sənin,
Başı batsın düşmənin.
İçində çox qızıl var,
Onların xeyri olar.
Qırmızı atlaz libas,
Daraq, bəzəyi almaz.





Aparıcı Qarğa:
Sehrli darağı bir tac,
Saçına taxdı Turac.
(Yenə oldu qız Turac)
Əynində qırmızı libas,
Darağında var almaz.
Ana görsün qızını,
Çəksin onun nazını.

İlmə:

Gedək onun yanına,
Dinclik gəlsin canına.
Ağlama, sevin, Turac,
Var anan, evin, Turac!

Ana:

(Muğam oxuyur. Kənd evində nə isə bişirə-bişirə ağlayır.)

Qara gələcək yazım,
İtibdir gözəl qızım!

(Bu vaxt İlmə və Turac evə girirlər. Ana qızını öpür və sevinə-sevinə İlməyə təşəkkür edir.)



Ana:
Sağ ol, İlmə, can oğlum,
Qovuşdurdun qızıma.
Bal qatdın, yetişəcək
Baharıma, yazıma!

(Ana İlməni qucaqlayır və ona xonça verir. Bahar gül-çiçəklə birlikdə evə daxil olur. Dörd çərşənbə yan-yana dayanır.)





Torpaq çərşənbəsi

Bahar:
Su Torpağa verib can,
Günəş çıxıbdır, oyan!
Yaşıllaşıb təbiət,
Sevinibdir cəmiyyət!

Xor ("Azərbaycan – elin qəlbi" mahnısı səslənir. Sözləri və musiqisi Solmaz Amanova). Bütün nağıl qəhrəmanları səhnədə, hamının əlində səməni, xonça, lalə, bənövşə, pambıq kolları, taxıl, gül.)

Azərbaycan – elin qəlbi,
Xalqın vuran ürəyidir.
Azərbaycan – azəri can,
Xalq sevgisi gərəyidir.

Bakı – küləklər şəhəri,
Buruqlar məskəni Xəzər.
Kür balığı, qara nefti,
Uzaq sizdən hər bədnəzər.


Düzlərində ceyran qaçar,
Yamacları bəzər turac.
Ağaran pambığa baxın,
Açılıbdır qulac-qulac.

Azərbaycan – elin qəlbi,
Xalqın vuran ürəyidir.
Azərbaycan – azəri can,
Xalq sevgisi gərəyidir.

Gözəl Vətən, gözəl diyar,
Ürəyimdə min arzu var.
Daim yaşa, daim var ol,
Çiçək açsın bu arzular.

Düzlərində ceyran qaçar,
Yamacları bəzər turac.
Ağaran pambığa baxın,
Açılıbdır qulac-qulac.

Pərdə










“Turac və sehrli daraq” pyesində
xalqımızın ən qədim milli bayramı olan
Novruz ənənələri, qədim oyunlarımız
özünəməxsus tərzdə
folklor janrına uyğun qələmə alınıb.
Turac haqqında məşhur rəvayət uşaqlar üçün
uyğunlaşdırılaraq fərqli şəkildə təqdim olunur,
bu isə pyesi daha da maraqlı edir.



www.3alma.az
ISBN 978-9952-532-50-0
3 alma
9 789952 532500
Qiyməti: 10₼